Elm:xüsusi buraxılış .- 2025.-18 noyabr (№36-37).- S.25.

# *Ebru Caymaz:*
# "AMEA-nın yubileyi Azərbaycan elminin üfüqlərini Antarktidaya qədər genişləndirəcək"



**Azərbaycan Milli Elmlər Akademiyasının 80 illik yubileyi münasibətilə ölkəmizdə səfərdə olan Antarktida Elmi Tədqiqatlar Şurasının Humanitar və Sosial Elmlər üzrə Daimi Komitəsinin üzvü, Çanakkale Onsekiz Mart Universitetinin dosenti Ebru Caymaz müsahibəsində elmin birləşdirici missiyasından, Türkiyə və Azərbaycan arasında elmi əlaqələrin gələcək perspektivlərindən danışıb. O, bildirib:**

- Azərbaycan elminin nüfuzunu artıran belə mərasimlərin davamlı olmasını çox önəmli hesab edirəm. Bu cür tədbirlər elmin cəmiyyətdəki mövqeyinin möhkəmlənməsi, bilik mədəniyyətinin təşviqi baxımından böyük əhəmiyyət daşıyır. Bəşəri elmi tədqiqatlarda türk elm adamlarının imzası var və onlar dünya elminə verdikləri töhfələrlə hər zaman diqqət mərkəzində olublar. Tarix boyu Azərbaycan alimləri də müxtəlif sahələrdə dünya elminə böyük nailiyyətlər qazandırıb. Azərbaycan Milli Elmlər Akademiyasının 80 illik yubiley münasibətilə keçirilən bu tədbir isə Azərbaycan elminin zəngin tarixini, uğurlarını və gələcəyə olan perspektivlərini vurğulayan əlamətdar hadisədir.

Azərbaycanın son illərdə sürətli inkişafı göz önündədir. Ölkə bu uğurları həm davamlı inkişaf, həm də akademik əməkdaşlıq sahələrində nümayiş etdirib. Bizim universitetin də Azərbaycanla Anlaşma Memorandumu mövcuddur. Əslində, demək olar ki, Türkiyənin bütün universitetləri artıq Azərbaycanla əməkdaşlıq edir. Azərbaycanlı alimlər uzun müddətdir ki, bu istiqamətdə fəal çalışırlar və indi bu əməkdaşlıqlar konkret nəticələr verməyə başlayıb.

Hazırda Azərbaycan və Türkiyə bir çox sahədə birgə fəaliyyət göstərirlər, lakin yaxın illərdə xüsusilə iqlim dəyişikliyi, davamlı inkişaf və ətraf mühitin qorunması kimi mövzular daha ön plana çıxacaq. Bildiyiniz kimi, Azərbaycan ötən il noyabr ayında COP29 tədbirinə ev sahibliyi etdi. Bu, Azərbaycanın qeyd etdiyim sahələrə verdiyi əhəmiyyətin real göstəricisidir.

Birləşmiş Millətlər tərəfindən prioritet elan edilən bu istiqamətlərdə Türkiyə və Azərbaycanın daha sıx əməkdaşlıq etməsi vacibdir. Bu əməkdaşlığa qütb tədqiqatları da daxildir. Hər iki ölkə üçün bu istiqamət hələ yenidir, lakin bir-birindən öyrənəcəkləri çox şey var. Məncə, bu sahədə birgə layihələrin inkişafı hər iki ölkəyə böyük fayda gətirəcək.

Tədbir zamanı məni ən çox təsirləndirən məqamlardan biri AMEA-nın prezidenti, akademik İsa Həbibbəylinin çıxışı oldu. Onun səmimi qarşılaması, açılış nitqindəki fikirləri bizə öz evimizdəymişik kimi hiss yaşatdı. 20-dən çox ölkənin dəvət etdiyi tədbirlərdə iştirak etmişəm, amma ilk dəfə idi ki, özümü təşkilatın bir parçası kimi hiss etdim. Burada türk dövlətlərindən çoxsaylı nümayəndələrin olması da bu duyğunu gücləndirdi.

Bundan əlavə, mən TÜRKSOY-un fəaliyyətini çoxdan maraqla izləyirdim. Sibirdə yerli xalqlar üzərində apardığım tədqiqatlar zamanı onların işlərinə dolayı şəkildə rast gəlirdim, lakin indiyədək üzbəüz görüşmək imkanım olmamışdı. Bu tədbirdə onlarla eyni məkanda olmaq, çıxışlarını dinləmək, onların elmi prioritetlərini öyrənmək mənim üçün çox dəyərli təcrübə oldu.

Ümumiyyətlə, bu səfər məndə çox müsbət təəssüratlar buraxdı. Kağız üzərindən tanıdığım insanları və qurumları şəxsən görmək, bu qədər mehriban və qonaqpərvər mühitdə olmaq məni çox sevindirdi. Ev sahibliyi edən ölkə və təşkilat inanılmaz dərəcədə diqqətli və fədakar idi. Eyni zamanda, uzun müddətdir birgə tədqiqat aparmaq arzusunda olduğum ölkələrin və institutların nümayəndələrini burada görmək çox təsirli idi.

AMEA-nın yubileyi elm tarixinin parlaq səhifəsidir. Akademiyanı ziyarət mənim üçün çox müsbət emosiyalarla yadda qaldı və ümid edirəm ki, mövcud əməkdaşlıqlar gələcəkdə daha da genişlənəcək. Ən əsası, bu tədbir mənə böyük ümid və motivasiya verdi. Buna görə də dərin təşəkkürümü bildirirəm.